***Azərbaycanın xarici siyasətində Avroatlantik təşkilatlarla əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi mühüm yer tutur. Buna görə də, təsadüfi deyil ki, Avrasiyanın strateji əhəmiyyətli ərazisində yerləşən Azərbaycanın Avropa İttifaqına (Aİ), eləcə də Şimali Atlantika Müqaviləsi Təşkilatına (NATO) üzv dövlətlərlə siyasi və iqtisadi münasibətləri uğurla inkişaf edir. Hər iki nüfuzlu güc mərkəzi ilə əlaqələrin genişlənməsi məsələsini rəsmi Bakı diqqət mərkəzində saxlayır. Prezident İlham Əliyevin Brüsselə son işgüzar səfərinin nəticələri də belə deməyə əsas verir ki, Avroatlantik strukturlar İkinci Qarabağ müharibəsindən qalib çıxmış Azərbaycanın Cənubi Qafqaz regionunda yaratdığı reallıqlar fonunda ölkəmizlə hərtərəfli əlaqələrin inkişafına təkan verəcək addımların atılmasında maraqlıdır.***




# Avroatlantik təşkilatlarla əməkdaşlıq genişlənir

Qara dəniz və Xəzər dənizi arasında yerləşən Cənubi Qafqaz regionu Cənub-Şimal və Qərb-Şərq enerji və nəqliyyat xətlərinin kəsişməsi və Xəzər hövzəsi enerji mənbələrinə sahib olması baxımından böyük əhəmiyyət daşıyır. Avrasiyanın mühüm strateji əhəmiyyətli ölkəsi kimi dəyərləndirilən Azərbaycanın həyata keçirdiyi və dəstəklədiyi strateji layihələr də Avropa qitəsində təhlükəsizliyin gücləndirilməsinə öz töhfəsini verir, regional iqtisadi-siyasi inkişafın təmin olunmasına şərait yaradır.

Qürurverici haldır ki, Azərbaycan Avrasiyada sistemli proqramlar həyata keçirən yeganə Qafqaz ölkəsidir. Nüfuzlu siyasi şərhçilərin sözlərinə görə, Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) layihəsinin nümunəsində Bakı müstəqil enerji siyasətini həyata keçirməyə tam hazır olduğunu nümayiş etdirir. Ən əsası, yeni beynəlxalq enerji layihələrini inkişaf etdirməklə Azərbaycan həm də Avropa ilə Asiya arasında sülh və əməkdaşlıq körpüsü rolunu oynayır. Bu, ölkənin xarici siyasətinin regional inteqrasiyaya töhfə verdiyini təsdiqləyir və yeni enerji layihələrinin icrası Azərbaycanın fəal diplomatik fəaliyyəti fonunda baş verir. Xüsusilə də Aİ və NATO ilə əlaqələrin müntəzəm inkişafı rəsmi Bakının yürütdüyü çoxşaxəli və praktik siyasətin nəticəsi kimi qiymətləndirilir.

Heç kimə sirr deyil ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Bu faktı rəqəmlər də təsdiqləyir. Belə ki, ölkəmizin xarici ticarətində Avropa İttifaqının payı 40 faizə bərabərdir. Ötənilki ticarət dövriyyəsi, demək olar ki, 9,5 milyard ABŞ dollarına bərabər olmuşdur. Hazırda Azərbaycanın Avropa İttifaqına üzv dövlətlərlə ixracının həcmi 6,8 milyard ABŞ dolları təşkil edir. Bununla yanaşı, Aİ-yə üzv dövlətlərdən 1700-dən çox şirkət Azərbaycanda fəaliyyət göstərir. Bu, həmçinin Azərbaycan ilə Aİ arasında iqtisadi fəaliyyətinin miqyasını nümayiş etdirir. Azərbaycan Avropa İttifaqının 9 üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalamışdır və ya qəbul edilmişdir. Buna görə də, Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanı strateji tərəfdaş hesab edir və bu, əlbəttə ki, rəsmi Bakının çox böyük nailiyyəti kimi dəyərləndirilir, eyni zamanda, əməkdaşlıq üçün əlavə imkanlar da yaradır. Ümumiyyətlə, Aİ–Azərbaycan münasibətləri fərqli, amma bir-birini tamamlayan müxtəlif müstəvilərdə həyata keçirilir. Azərbaycanın Aİ ilə "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsindəki əməkdaşlığı 2004-cü ildə qəbul olunmuş "Avropa Qonşuluq Siyasəti" və ikitərəfli münasibətlərin hüquqi əsasını təşkil edən, 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi üzərində qurulmuşdur. Xüsusilə qeyd olunmalıdır ki, münasibətlərin sürətli inkişafı əlaqələrin daha da dərinləşdirilməsinə rəvac vermişdir.

Azərbaycan artıq öz investisiyaları ilə Avropa bazarına daxil olmuşdur. Ölkəmiz indi həm də xaricə sərmayələr yatıraraq, investisiya portfelini şaxələndirir. Azərbaycan artıq Avropa İttifaqının bəzi üzv ölkələrinə yüz milyonlarla avro məbləğində investisiya yatırmışdır. Bu proses uğurla davam edir. Cari ilin 18 iyul tarixində Prezident İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin birgə keçirdikləri mətbuat konfransında ölkə başçısı bildirmişdir ki, yanvarın 1-dən bu günədək Azərbaycandan Avropa İttifaqına üzv dövlətlərə, xüsusilə İtaliya, Yunanıstan və Bolqarıstana 3 milyard kubmetrdən çox təbii qaz ixrac olunmuşdur. Prezident İlham Əliyev xüsusilə vurğulamışdı ki, Avropa bazarına ixrac olunacaq təbii qazın həcmi artacaq.

Qeyd etmək yerinə düşər ki, uzun illərdir Azərbaycan Avropa istehlakçılarının etibarlı xam neft təchizatçısıdır. Bundan sonra, əlbəttə ki, qaz təchizatçısı kimi Azərbaycanın potensialı artacaq və ölkə başçısının vurğuladığı kimi, bu, ixracatçı olaraq ölkəmiz üçün, tranzit ölkələr və istehlakçılar üçün daha çox imkanlar yaradacaq. Çünki Azərbaycan qazı təkcə yeni marşrutdan olan qaz deyil, yeni mənbədən olan qazdır və bu, layihəni həqiqətən də enerji təhlükəsizliyi layihəsinə çevirir. Prezident İlham Əliyev dekabrın 15-də Brüsseldə keçirilən Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" Sammitində çıxışında Azərbaycan qazının etibarlı və yeni mənbə olaraq Avropa İttifaqı bazarına çatdırıldığını bir daha vurğulamışdır.

Xüsusilə qeyd etmək lazımdır ki, Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" ölkələrinin Brüsseldə keçirilən altıncı sammitinin yekunu olaraq qəbul edilən birgə bəyannamə rəsmi Bakının mövqeyini tam əks etdirir. Bunu rəsmi Bakının xarici siyasətinin növbəti qələbəsi kimi də qiymətləndirmək olar. Belə ki, birgə bəyannaməyə əsasən, Avropa İttifaqı bütün tərəfdaş ölkələrin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü onların beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində dəstəkləyir. Sənəddə mehriban qonşuluq münasibətlərinə, etimadın möhkəmləndirilməsinə yönəlmiş tədbirlərə, "Şərq Tərəfdaşlığı" regionunda nəqliyyat əlaqələrinin gücləndirilməsinə dəstək ifadə olunur. Bu prinsiplər Azərbaycanın postmünaqişə dövrü gündəminə tam uyğundur.

Bundan əlavə, bəyannamənin mətnində "Şərq Tərəfdaşlığı" regionundakı münaqişələrdən zərər çəkmiş əhaliyə dəstək tədbirlərinin vacibliyi qeyd olunur. Azərbaycanla Avropa İttifaqı arasında yeni ikitərəfli əhatəli razılaşmaya dair danışıqlarda əldə edilmiş irəliləyiş alqışlanır. Bəyannamədə Cənub Qaz Dəhlizi layihəsinin yekunlaşması yüksək qiymətləndirilir, Azərbaycanın Avropanın qaz təchizatının şaxələndirilməsində rolu xüsusi qeyd edilir. Bir sözlə, Azərbaycan-Aİ əlaqələri sürətlə inkişaf edir və tərəflər bu əlaqələrin dərinləşdirilməsində maraqlı olduqlarını bildirirlər. Münasibətlərin xarakteri və yaradılmış hüquqi-normativ baza Azərbaycan–Aİ əlaqələrinin gələcəkdə də yüksək templə inkişaf edəcəyini təsdiqləyir.

Eyni sözləri Azərbaycan–NATO əlaqələri barədə də demək olar. Azərbaycanın xarici siyasətində də əsas vəzifələrdən biri Avroatlantik məkanın təhlükəsizliyinin qorunmasında və sülhün təmin edilməsində strateji rol oynayan NATO ilə münasibətlərin inkişaflna nail olunmasıdır. Xatırladaq ki, Azərbaycan 1994-cü ildən NATO-nun "Sülh naminə tərəfdaşlıq", 2004-cü ildən isə "Fərdi tərəfdaşlıq" proqramlarına qoşulmuş, 1999-cu ildə NATO PA-ya müşahidəçi, 2002-ci ildən isə assosiativ üzv qəbul edilmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin birləşmələri müxtəlif vaxtlarda Kosovo, İraq və Əfqanıstanda sülhməramlı qoşunların tərkibində iştirak etmişlər. 2018-ci ilin yanvar ayından Azərbaycan NATO-nun Əfqanıstanda keçirdiyi "Qətiyyətli dəstək" missiyası üzrə Azərbaycan Ordusunun sülhməramlı kontingentinin şəxsi heyətinin sayı 120 nəfər olmuşdu.

Qeyd etmək yerinə düşər ki, Azərbaycan Ordusunun sülhməramlı kontingenti Kabil Beynəlxalq Hava Limanının mühafizəsi tapşırığını peşəkarlıqla icra etmiş və hava limanını ən sonuncu tərk edənlərdən biri olmuşdu. Bununla bağlı, NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina Əfqanıstanda alyansa göstərdiyi dəstəyə görə Azərbaycana minnətdarlığını bildirmişdi. O, Azərbaycan bölmələrinin bu ilin avqustunda NATO-nun müttəfiq və tərəfdaşlarının şəxsi heyətinin təxliyəsi üzrə səylərinin dəstəklənməsində rolunu xüsusi vurğulamışdı. Brüsseldə Prezident İlham Əliyev ilə birgə keçirilən mətbuat konfransında NATO-nun Baş katibi Yens Stoltenberq xüsusilə vurğulamışdır ki, Azərbaycan alyansın Əfqanıstandakı sabiq missiyasına mühüm töhfələr vermişdir. Azərbaycan Silahlı Qüvvələri Kabil Hava Limanında bu yay aparılan təxliyə işləri zamanı təhlükəsizliyin təmin edilməsində fəal rol oynamışlar.

Müstəqil dövlət kimi balanslaşdırılmış xarici siyasət yürüdən Azərbaycan strateji əhəmiyyətli regionların təhlükəsizliyinin etibarlı və davamlı qorunmasında mühüm geosiyasi faktor kimi çıxış edir. Prezident İlham Əliyevin dekabrın 14-də Belçika Krallığının paytaxtı Brüsseldə NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirak etməsi bu reallığı bir daha təsdiqləyir. İclasda Azərbaycan–NATO əməkdaşlığının və praktiki müstəvidə əməkdaşlığın inkişafının, Alyansın Əfqanıstanda keçirilən "Qətiyyətli dəstək" missiyasına ölkəmizin töhfəsinin, Azərbaycanla NATO arasında planlaşdırma analiz prosesinin və digər proqramlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsi məsələlərinin, həmçinin Azərbaycanın Avropanın enerji təchizatında rolunun, regional proseslər barədə ətraflı fikir mübadiləsinin aparılması Azərbaycan–NATO əməkdaşlığının sabit və davamı inkişafının göstəricisi kimi qiymətləndirmək olar. Prezident İlham Əliyev iclasda diqqətə çatdırmışdır ki, NATO-nun 20-yə yaxın ölkəsi Azərbaycandan neft idxal edir. Həmçinin alyansın 4 ölkəsinin, o cümlədən, Türkiyənin Azərbaycandan qaz idxal etdiyi və gələcəkdə bu coğrafiyanın genişləndirilməsi imkanlarının olduğu diqqətə çatdırılmışdır. İclasda, həmçinin Azərbaycanın enerji təchizatı sahəsində etibarlı tərəfdaş olduğu, alternativ mənbə və alternativ xətt üzrə Avropanın enerji təhlükəsizliyinə töhfələr verdiyi qeyd edilmişdir.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***